*Cavadova Esmira. Teymur bəy Bayraməlibəyovun tədris məsələlərinə həsr etdiyi iki əlyazması haqqında // Elmi əsərlər,2020,1(10),yanvar-iyun, s.17-20.*

UOT 821.512.162

**Cavadova Esmira**
*tarix üzrə fəlsəfə doktoru,dosent*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş.,İstiqlaliyyət küç.26.*
esmira.cavadova@gmail.com

# TEYMUR BƏY BAYRAMƏLİBƏYOVUN TƏDRİS MƏSƏLƏLƏRİNƏ HƏSR ETDİYİ İKİ ƏLYAZMASI HAQQINDA

**Açar sözlər:** *Teymur bəy Bayraməlibəyov, Müəllimlər İclası, Müəllimlər Qurultayı,təhsil, təlim.*

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnistitutunun fonunda müxtəlif elm sahələrinə aid müxtəlif dillərdə yazılan əlyazmalar qorunub saxlanılır. Tibb, astranomiya, riyaziyyat, mineralogiya, poetika, fəlsəfə, hüquqsunaslıq, qrammatika, tarix, coğrafiya, ədəbiyyat və sair sahələrin adlarını çəkə bilərik.İnstitutun xəzinəsində qorunan bu əlyazmaların çox böyük hissəsini təşkil edən Azərbaycan, türk, ərəb, fars dillərində olan əlyazmalar müxtəlif elm sahələrinin nümayəndələri tərəfindən tədqiq edilərək öyrənilmiş və nəşr edilərək elmi ictimaiyyətə, geniş oxucu kütləsinə çatdırılmışdır.Belə tədqiqatlar indidə davam etdirilir.

Əlyazmalar İnstitutunun xəzinəsində qorunan nadir əlyazma nüsxələri ilə bərabər XIX əsrin sonu XX əsrin əvvələrində Azərbaycanda yaşayıb-yaratmış, "Qori Müəllimlər Seminariyası"nın məzunu, maarifçi-pedaqoq, folklor, etnoqrafiya və diyarşunaslıq sahərində böyük xidmətlər göstərmiş Teymur bəy Bayraməlibəyovun rus dilində yazdığı əlyazma nüsxələri də mühafizə olunur. Onun Azərbaycanın digər görkəmli ziyalıları - A.Qiyasbəyov, N.Mahmudbəyov, S.Vəlibəyov, Ə.Əfəndiyev, O.Qayıbov, S.Acalov, A.Aslanov, İ.Muradov və başqaları ilə birlikdə Tiflisdə çıxan SMOMPK (Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu) məcmuəsində (1881-1915) nəsr etdirdikləri müxtəlif məzmunlu folklor nümunələri və mifoloji mətinlər indinin özündədə çox dəyərli mənbələrdən hesab olunur.

Bu məqalədə isə biz Teymur bəy Bayraməlibəyovun əlyazmaları içərsində tədris məsələlərinə həsr etiyi iki əlyazması-"Müəllimlər İclası" və "Müəllimlər Qurultayı" (rus dillindədir; s.v.: D-686 / 28593) adlı məqalələrinin üzərində dayanacağıq. Müəllimlər iclasında iştirak edən görkəmli pedaqoq Teymur bəy Bayraməlibəyov əlyazmada yazırki, 1913-cü il aprelin 30-da axşam saat 8-də "6 sinifli Şəhər Oğlan Rus-Tatar (Azərbaycan-E.C.) Məktəbi "nin binasında Xalq Təhsil Məktəbinin inspektoru cənab S.M.Qəniyevin iştirakı ilə pedaqoji iclas keçirilmişdir. İclasda məktəbin müəllimi cənab Bədələbəyov tərəfindən "Rus dilinin şagirdlərə yüksək səviyyədə tədris edilməsi üçün lazımı qərarların qəbul edilməsi" mövzusunda referat oxunmuşdur .Oxunan referatdan aydın olur ki, müəllim xüsusilə qeyd edirki, fənnin yüksək səviyyədə tədrisi üçün sinifdə şagirdlərin sayının 50 nəfərdən çox olması buna imkan vermir. Çünki, keçirilən bir saat dərs ərzində müəllim şagirdlərin hər birinə diqqət ayırıb onunla işləyə bilmir. Odur ki, tədrisin keyfiyyətinin artırılması üçün hər sinifdə şagirdlərinin sayının 35-dən çox olmaması məqsədə uyğun olardı. Çünki, bu say şagirdlərin ibtidai sinifləri bitirib, yuxarı tədris ocaqlarına rus dilindən imtahan verib qəbul olunması üçün çox vacibdir. Daha sonra Teymur bəy qeyd edir ki, referatda yekun söz olaraq cənab Bədəlbəyov fənni tədris edən bütün müəllimlərin adından cənab inspektordan xahiş edir ki, onların bu istəyi Bakı Şəhər Dumasına çatdırılsın və onlar ümid edirlər ki, bu haqda Dumada lazımı qərar qəbul ediləcəkdir.

Teymur Bayraməlibəyov da müəllimlər iclasının iştirakçısı olaraq, əlyazmada öz fikrini bildirərək yazır ki, məktəbdə tədris olunan digər fənnlərlə yanaşı rus dilinin tədrisi şagirdlərin bilik dairəsinin artırılmasına, onların formalaşmasına kömək edir.[1].O, ki qaldı sinifdə şagirdlərin sayının 50 nəfərdən 35-ə qədər azaldılması, tədrisin keyfiyyətinin yüksəldilməsi naminə təcrübəli müəllimlər tərəfindən irəli sürülmüş, vaxtında qaldırılmış vacib məsələdir. Mən

də bu məsələnin Dumada mütləq həllini tapacağına ümid edirəm.Qoy bugünki iclas yaxın günlərdə keçiriləcək "Müəllimlər Qurultayı"na hazırlıq işi kimi qəbul edilsin.[3]

Teymur bəy Bayraməlibəyovun diqqəti cəlb edən ikinci əlyazması "Müəllimlər Qurultayı"na həsr edilmişdir. Bu haqda əlyazmada Teymur bəy yazır ki, 26 may, səhər saat 10-da " 6-cı sinifli Alekseyev Şəhər Məktəbi"nin binasında Bakı və Göyçay qəzası kənd məktəbi müəllimlərinin və eləcə də "Nəşri- Maarif" müsəlman maarif cəmiyyətinin iştirakı ilə qurultay keçirilmişdir.Qurultayda Bakı Quberniyası Xalq Təhsilinin direktoru cənab S.M Qəniyev və Dağıstan Muxtar Vilayətinin inspektoru cənab Txorjevski eləcə də Rus-tatar (Azərbaycan.-E.C.) məktəbinin müəllim və tələbə heyəti iştirak edirdilər.[2].Qurultayın açılışından əvvəl "6 sinifli Alekseyev Şəhər Məktəbi"nin şagirdləri müəllim Hacı Mirzə Ağa Mövsüm bəyin rəhbərliyi ilə İmperator əlahəzrətlərinin vəliəhdinin vərəsəsi olan nəvəsi və xanımının şərəfinə dualar oxuyaraq bütün "İmperator Evinə"can sağlığı arzulamışlar. Sonra Qafqaz Tədris Dairəsi direktorunun adından cənab Txorjevski qurultayı açıq elan edərək dedi: "Böyük pedaqoq Disterinin sözü ilə desek o müəllim o üşaqları öyrədə bilər ki, onlar təhsil almağa can atandılar və o uşaqlar indi də oxumağa davam edirlər və siz müəllimlərin üzərinə indi daha böyük məsuliyyət düşür ki, qarşınza qoyduğunuz məqsədə nail ola biləsiniz, sizin üzərinizə düşən etimadı doğrulda biləsizniz".[4].

Daha sonra cənab S.M.Qəniyev də qurultay iştirakçılarını salamlayaraq onlara uğurlar arzuladı və qarşıda duran məsələləri onların nəzərinə çatırdı: qurultayda əsasən müxtəlif pedaqoji məsələlərin müzakirəsi, müxtəliffənlər üzrə oxunan referatlar (müəlliflərin siyahısı və oxunan referatların mövzusu göstərilir), rus dili, riyyaziyyat, tatar dili (Azərbaycan –E.C) fənnləri üzrə nümunəvi dərslərin keçirilməsi, fizika fənni üzrə uşaqların başa düşəcəyi tərzdə kənd məktəblərində sadə təcrübələrin keçirilməsi, keçirilən dərslərin müzakirəsi, əyani vasitələrdən çox istifadə edilməsi və s.

Birdə cənab Qəniyev iştirakçılara bildirdi ki, qurultayda iştirak edənlər indiyə qədər 60 nəfərdən ibarətdir. Onların sayı çox olmalıdır.Uzaqdan gələnləri nəzərə alsaq birazdan sonra onların sayı artacaqdır. Uzaqdan gələn müəllimlər mebelli pulsuz evlərlə təmin olunacaqdır,yol xərci,yemək pulu onlara ödəniləcəkdir. Dərslər səhər saat 9-dan, günorta saat 2-yə qədər və axşam saat 6-dan gecə saat 12-yə qədər müzakirələrlə davam edəcəkdir. 5 iyun qurultayın son günüdür. Əgər qurultayda kənd adamları iştirak etmək istəsələr mütləq cənab inspektor Qəniyevdən icazə almalıdırlar bu şərtlə ki, onlar məsələlərin müzakirəsində iştirak edə bilməzlər. Bayram günlərində axşam dərsləri keçirilməyəcəkdir.

Daha sonra T.Bayraməlibəyov Müəllimlər Qurultayının gedişatı haqqında məlumat verərək yazır ki, mayın 29-da "6-cı sinifli Şəhər Alekseyev Məktəbi"ndə gündüz 1-ci sinif şagirdlərinə Barquşilski,Nəcəfli, Axundov və "Nəşri-Maarif" cəmiyyətinin üzvü Balababa Cəbrayılov nümunəvi dərslər vermişlər. 1-ci sinif şagirdləri ilə keçirilən nümunəvi dərsdə iki müəllim eyni vaxtda şagirdlərlə işləyirdilər.Dərsin birinci hissəsində müəllimlərdən biri onları əhatə edən əşyaların adlarını ana dilində deyir,ikinci müəllim isə adı çəkilən əşyanın adını rus dilində çəkirdi. Sonra sorğu-sual şəklində Azərbaycan dilində çəkilən əşyanın adını rus dilində soruşub cavab alırdılar.Dərsin ikinci hissəsində isə müəllin Axundov Mahmud bəy Mahmudbəyovun "Türk –Əlifbası" kitabından götürülmüş "Qarğa və eşşəkarısı" hekayəsinin izahlı oxunuşunu keçirdir, hekayənin düzgün oxunuşunu şagirdlərə öyrədirdi.

İbtidai sinif şagirdləri ilə müəllim Cəbrayılovun keçirtdiyi açıq dərs çox maraqlı oldu.[5].

O, əyani olaraq şagirdləri tərəvəzlərlə tanış etdir, Azərbaycan və rus dillərində onların adlarını deməyi sadə cümlələr qurmaqla öyrədir.

Alekseyevka məktəbinin müəllimi A.V.Qolovko isə fizika fənni üzrə altıncılarla istilik keçirmədən tərcübə aparmışdır.[6].

İyunun 3-də "6 sinifli Şəhər Alekseyeva Məktəbi"ndə inspektor cənab Qəniyevin iştirakı

ilə gündüz Maştağa və Kazıyan kənd məktəbinin müəllimləri Əhməd Cəbrayılov və Məmmədsadıx Mehtiyev rus dili fənni üzrə nümunəvi açıq dərslər keçirdilər. Onların hər ikisi dərsin birinci hissəsində rus dilində cətin tələffüz edildiyi sözdərin bir neçəsini özləri tələffüz etdilər, məs.: "i"(и) hərfi ilə işlədilən "пила", "пилят" və s., hətta "л" hərfinidə şagirdlər çətin tələffüz etdikləri üçün "луна" (luna- ay) ,"лягушка" (qurbağa) sözlərinin mənasını uşaqlara öyrətdilər və hamı bu sözləri birlikdə tələffüz etdilər.

Dərsin ikinci hissəsində isə rus dilində evə verilmiş tapşırığın ana dilinə tərcümə edilərək yerinə yetirilməsi üzərində sual-cavaba ayrılan məşğələ 20 dəqiqə ərzində keçirildi.

Qeyd etmək lazımdır ki,ibtidai siniflərdə keçirilən açıq dərslərdə müəllim Cəbrayılov tatar (Azərbaycan –E.C.) dilində yazılmış "İkinci İl" kitabında yerləşdirilmiş "Daş və dəmir" mətninin izahlı oxunuşunu, müəllim Mehdiyev isə rus dilində yazılmış "Родной мир" kitabının birinci bölməsində yerləşdirilmiş "За что волка бьют" (Canavarı nə üçün vururlar) məqaləsinin məntiqli,izahlı oxunuşunu şagirdlərlə çox canlı keçirmişlər.

Fizika fənni üzrə altıncılarla keçirilən təcrübə məşğələsi müəllim Səməd bəy Adıgözəlov tərəfindən çox maraqlı keçdi.Müəllim elektrikin nədən əmələ gəldiyini əyani olaraq şagirdlərə göstərə bildi.

Rus dilinin qrammatikası və tədrisi metodikası üzrə 3-cü rus-tatar (Azərbaycan-E.C.) məktəbinin müdiri Mahmud bəy Mahmudbəyov, 8-ci rus-tatar (Azərbaycan-E.C.) məktəbinin müəllimi Alay bəy Şıxlınski tərəfindən referatlar oxundu.Eləcə də xüsusi məsələlər üzrə 6-cı və 2-ci rus-tatar məktəbninin nəzarətçiləri Bədəlbəy Bədəlbəyov, Əlicabbar Orucəliyev və müəllim Salmanbəy Məlikyeqanov tərəfindən məruzələr dinlənildi. Məruzələr ətrafında müzakirələr gecə saat 12-yə qədər çəkdi.

5 iyun gündüz saat 12-də "Alekseyev Şəhər Məktəbi"ndə qurultayın bağlanışı oldu. Belə ki,əvvəlcə müəllimlərin açıq dərslərinin protokolları dinlənildi. Sonsöz olaraq, cənab S.M.Qəniyev müəllimlərə müracıət edərək dedi : "Hörmətli qurultay iştirakçıları,hörmətli müəllimlər. Mən əminəm ki, keçirdiyiniz bu əlamətdar günlər sizin üçün çox əhəmiyyətli və yadda qalan olacaqdır.Çünki, siz müxtəlif fənnlər üzrə təcrübəli müəllimlərin nümunəvi dərslərində iştirak etdiniz, sınaq dərslərində isə sizə çatışmayan nöqsanları izah etdilər.Mən çəkinmədən deyə bilərəm ki,siz iştirak etdiyiniz dərslərdən praktiki hazırlıq təcrübəsi qazandınız və sinif dərslərində bu nümunələrdən müvəffəqiyyətlə istifadə edərək qurultayın qarşısında qoyulmuş vəzifələrin necə həyata keçirildiyini dərk edəcəksiniz.[7].

Qurultayda səsləndirilən bir məsələ də bizi narahat etdi. O da təhsili olmayan müəllimlərin ibtidai siniflərdə dərs deməsidir ki, bu qəbul edilməzdir.Onlar qısa bir müddətdə imtahan verərək qiyabi təhsil almağa yönəldilməlidirlər, yoxsa onlar tutduqları vəzifədə çox qala bilməzlər və sizin müdiriyyət bu işlərə nəzarət etməlidir.

Sonra cənab S.M.Qəniyev qurultayda iştirak edənlərin hər birinə öz təşəkkürünü bildirdi və qurultayın gedişini qələmə almağa görkəmli təşkilatçılara tapşırdı.

Bu tapşırığı ilk gündən Teymur bəy Bayraməlibəyov yerinə yetirdi.Əvvəlcə əlyazma şəklində onun dəftərxana vərəqində yazdığı "Müəllimlər İclası", "Müəllimlər Qurultayı" haqqında qeydlərini oxuyuruq (rus dilində), sonra isə görkəmli pedaqoq,maarifçi,publisist öz qeydlərini çap olunmaq üçün "Kaspiy"qəzetinə göndərir və orada nəşr olunur.

**Ədəbiyyat :**


1. Bayraməlibəyov T. Müəllimlər İclası (rus dilində). Əlyazma.Dəftərxana dəftəri. S.V. : D-686 /28593. S.13-15.
2. Bayraməlibəyov T. Müəllimlər Qurultayı (rus dilində). Əlyazma.Dəftərxana dəftəri. S.V : D-686\28593. S.17-20

3. Учительское собрание (Müəllimlər İclası). Lənkəran.Xüsusi müxbirimiz T.Bayraməlibəyovun qeydləri // "Kaspiy" qəzeti.- 1913. - №109 - 19may.
4. Учительский съезд (Müəllimlər Qurultayı). Lənkəran.Xüsusi müxbirimiz T.Bayraməlibəyovun qeydləri //"Kaspiy" qəzeti . - 1913. - №117. - 28 may.
5. Учительский съезд (Müəllimlər Qurultayı). Lənkəran.Xüsusi müxbirimiz T.Bayraməlibəyovun qeydləri //"Kaspiy qəzeti".- 1913. - №120.- 31 may.
6. Учительский съезд (Müəllimlər Qurultayı). Lənkəran.Xüsusi müxbirimizT.Bayraməlibəyovun qeydləri //"Kaspiy qəzeti". – 1913. - №122. - 2 iyun.
7. Учительский съезд (Müəllimlər Qurultayı). Lənkəran.Xüsusi müxbirimizT.Bayraməlibəyovun qeydləri //"Kaspiy qəzeti". – 1913. - №124. - 6 iyun.

***Джавадова Есмира***

## О ДВУХ РУКОПИСЯХ ТЕЙМУР БЕКА БАЙРАМАЛИБЕКОВА, ПОСВЯЩЕННЫХ ВОПРОСАМ ОБУЧЕНИЯ

**Резюме**

В статье впервые приводится информация о двух рукописях выдающегося просветителя, педагога, публициста, выпусника Горийской Учителской семинарии Теймур бека Байрамалибекова. Сведения, указанные в рукописях, ценный материал для изучения истории образования в Азербайджане.

**Ключевые слова:** *Теймур бек Байрамалибеков, Учительское собрание,Учитальский съезд, образование, обучение.*

***Javadova Esmira***

## ABOUT TWO MANUSCRİPTS OF TEYMUR BEY BAHRAMALİBEYOV DEDİCATED TO TEACHİNG İSSUES

**Summary**

For the first time, the article provides information on two manuscripts of an outstanding educator, teacher, publicist, alumnus of the Gori Teacher's Seminary Teymur bey Bahram-ali-beyov.

The information provided in the manuscripts is valuable in studying of the education history of Azerbaijan.

**Key words:** *Teymur bey Bayramalibeyov, Teachers meeting, Teachers Congressm, education, training.*

Redaksiyaya daxil olma tarixi: 02.06.2020
Çapa qəbul olunma tarixi: 18.06.2020

Filologiya elmləri doktoru, professor **Paşa Kərimov** tərəfindən nəşrə tövsiyə olunmuşdur.